# Həssas kateqoriyadan olan insanların sosial müdafiəsi prioritet məsələdir

***Ölkəmizdə aparılan sosial islahatların prioritetlərindən biri də sığorta ehtiyatlarının effektiv idarə olunması və bu istiqamətdən əldə olunan gəlirlərin şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi tədbirlərinə yönəldilməsidir. Prezident İlham Əliyevin 18 iyun 2022-ci il tarixli fərmanı dövlət icbari şəxsi sığorta sahəsində sığortaolunanların (hərbçilər, hüquq-mühafizə orqanlarının əməkdaşları və b.) rifahının yaxşılaşdırılması və daha etibarlı sosial müdafiəsinin təmin olunmasına xidmət edir. Dövlət başçısının ötən ilin may ayında imzaladığı fərmanla dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətlər 2022-ci il yanvarın 1-dən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (ƏƏSMN) həvalə edilib.***

Həmin vaxta qədər dövlət icbari şəxsi sığorta üzrə sığorta hadisələrinə görə ödənişin verilməsi isə Dövlət Sığorta Kommersiya Şirkətinin öhdəliyi kimi müəyyən olunmuşdu. Yeni fərmanla bu sahədə edilən dəyişikliyə görə, dövlət icbari şəxsi sığorta olunanla bağlı sığorta hadisəsinin baş verdiyini təsdiq edən sənədin tarixi 2021-ci il yanvarın 1-dək olan dövrə aid olduqda sığorta ödənişini Dövlət Sığorta Kommersiya Şirkəti həyata keçirəcək. Sığorta hadisəsinin baş verdiyini təsdiq edən sənədin tarixi 2021-ci ilin 1 yanvarından sonraya aid olduqda isə sığorta ödənişini Dövlət Sosial Müdafiə Fondu verəcək.

Bu, dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin səmərəliliyinin artırılması istiqamətində növbəti mühüm addım olmaqla, sığortaolunanların maraqlarının dolğun təminatına, vətəndaş məmnunluğuna nail olunmasına imkan yaradır. Dövlət icbari şəxsi sığortası sahəsində səlahiyyətlər bu ilin əvvəlindən nazirliyə həvalə edildikdən sonra bu sahədə köklü islahatlar aparılır. İslahatlar həmin sahədə müasir, optimal və çevik idarəçiliyin, uçot sisteminin qurulması, inzibatçılığın təkmilləşdirilməsi, idarəçilik və xidmətlərin elektron infrastrukturunun yaradılması, sığorta ödənişlərinin e-qaydada, şəffaf və operativ təyinatı mexanizminin formalaşdırılması və s. kimi istiqamətləri əhatə edir.

BMT-nin Əhali Fondunun Türkiyədəki nümayəndəsi, Azərbaycan və Gürcüstan üzrə ölkə direktoru Hassan Mohtaşami ilə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevin görüşündə ölkəmizdəki demoqrafik vəziyyət, əhalinin sabit artım tempi barədə məlumat verilib. Vurğulanıb ki, son illər ƏƏSMN ilə BMT Əhali Fondu arasında əməkdaşlıq gündəliyi yeni birgə layihələr əsasında xeyli genişlənib. Uzunmüddətli əhali proqnozlarının hazırlanması və proqnozlaşdırma sistemi yaradılıb və bu sahədə kadr potensialı gücləndirilib.

Birgə icra olunan "Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi" layihəsinin mühüm uğurlarından biri kimi, BMT Avropa üzrə İqtisadi Komissiyasının ötənilki Siyasi İcmal buraxılışında Azərbaycanın fəal yaşlanma sahəsində müsbət təcrübə nümunəsi olan ölkələrdən biri kimi təqdim edildiyi bildirilib. Layihə çərçivəsində Azərbaycan üçün hazırlanmış Fəal Yaşlanma İndeksinin fəal və sağlam yaşlanma potensialının qiymətləndirilməsi və bu sahədə siyasətin təkmilləşdirilməsində əhəmiyyəti vurğulanıb, həmçinin iqtisadiyyatın yaş və ya nəsillərarası aspektinin milli səviyyədə qiymətləndirilməsi üçün BMT-nin Əhali Fondu ilə birgə icra olunan "Milli Transfer Hesabları" layihəsindən bəhs olunub.

Qeyd edək ki, Azərbaycan Ordusunun tarixi zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən, ölkəmizdə genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilir. Bu tədbirlər çərçivəsində Vətən müharibəsi şəhidlərinin ailə üzvləri olan 7 min 969 şəxsə 15 min 922 sosial ödəniş (Prezidentin təqaüdü, sosial müavinət, pensiya), həmçinin 2 min 772 müharibə iştirakçısına əlillik və 5 min 544 sosial ödəniş təyin olunub. Cari ilin ilk rübündə "Müharibə veteranı" adı verilmiş şəxslərə Prezidentin aylıq təqaüdünün təyinatına da başlanılıb və proses yekunlaşıb. Həmin sosial ödənişlərin vətəndaşların müraciəti olmadan və onların sənədlər təqdim etmələrinə ehtiyac qalmadan, elektron sistem üzərindən proaktiv qaydada təyinatı həyata keçirilir. Prezident İlham Əliyevin fərman və sərəncamları ilə şəhid ailələri, müharibə əlilləri üçün sosial ödənişlərin məbləği də həm 2021-ci ildə, həm 2022-ci ilin əvvəlindən əhəmiyyətli dərəcədə artırılıb.




Qeyd edək ki, hazırda ƏƏSMN-nin e-sistemlərinin 31 qurumun informasiya bazaları ilə inteqrasiyası həyata keçirilir. Həmin qurumlar tərəfindən son 5 ayda nazirliyin informasiya bazalarına edilən sorğu sayı 88 milyondan çox olub. Həmin dövrdə ƏƏSMN-nin fəaliyyət sahələri üzrə vətəndaşlara 280 min 110 elektron arayış verilib. Son 4 ildə əmək, məşğulluq, sosial təminat, əlillik, reabilitasiya və s. sahələr üzrə elektronlaşma proqramı çərçivəsində 30-dək elektron arayış xidməti yaradılıb. Nazirliyin e-xidmətləri vətəndaşların iş yerinə və ya əlilliyə dair, pensiya, müavinət və təqaüd, maddi yardım, ünvanlı yardım, dövlət tərəfindən mənzil və avtomobillə təmin edilmə, fərdi şəxsi hesab və s. barədə e-qaydada arayış əldə etmələrinə imkan verir.



Ölkəmizdə həyata keçirilən mühüm sosial dəstək tədbirlərindən biri də şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatıdır. Postmüharibə dövründə şəhid ailələri və müharibə əlillərinin mənzil və avtomobillə, sosial xidmətlərlə təminatı işlərinə dair keçirilən mətbuat konfransında 2021-ci ildə 3 min, 44 günlük Vətən müharibəsindən sonra isə 3500 şəhid ailəsi və müharibə əlilinin mənzil və fərdi evlərlə təmin edildiyi bildirilib. Qeyd olunub ki, Prezident İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri və müharibə əlillərinin mənzil təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib və keçən il 3 min mənzilin bu kateqoriyalardan olan şəxslərə verilməsi proqramı icra olunub. Ötən dövrdə, ümumilikdə, 12 min 500-dən çox şəhid ailəsi və müharibə əlilinə mənzil və ya fərdi ev verilib. Dövlət başçısının 25 avqust 2021-ci il tarixli sərəncamı ilə Vətən müharibəsi əlillərinə, "Vətən Müharibəsi Qəhrəmanı" adı alanlara və onlardan şəhid olanların ailələrinə də mənzillər verilir. Bu il artıq sosial cəhətdən həssas qruplardan olan ailələr 500-dən çox mənzillə təmin olunublar. Cari il ərzində, ümumilikdə, 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub.

Xatırladaq ki, müharibə əlillərinin avtomobillə təminatı işləri davam edir. Həmin tədbirlər çərçivəsində son 4 ildə 1450-dək, ümumilikdə, ötən dövrdə 7 min 400 müharibə əlili avtomobillə təmin edilib. Bu il isə müharibə əlillərinə 50, 44 günlük Vətən müharibəsindən sonra, ümumilikdə, 200, ötən dövrdə 7 min 400 avtomobil verilib.

Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısının daha bir təzahürü kimi və 15 İyun – Milli Qurtuluş Günü münasibətilə 50 nəfər Vətən müharibəsi əlilinə "Xəzər" markalı minik avtomobili təqdim edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini A.Kərimov müasir müstəqil Azərbaycan dövlətinin qurulması və inkişaf yoluna çıxmasını təmin edən ulu öndərin xüsusi qayğısı nəticəsində ölkəmizdə sosial sabitlik və inkişaf sahəsində mühüm addımlar atıldığını, eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlərlə, müharibə əlillərinin avtomobillə təminatına başlanıldığını bildirib. Qeyd edib ki, ümummilli lider Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam və inkişaf etdirilməsi Azərbaycanın sürətli inkişaf yoluna çıxmasını, həmçinin aparılan sosial siyasətin ildən-ilə güclənməsini təmin edib.

Qeyd olunub ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər qazandığı Vətən müharibəsindən sonra dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları genişmiqyaslı sosial dəstək paketi ilə əhatə olunub. Bu sosial dəstək paketi artıq 100 min şəxsi əhatə edib, onlara 190 min xidmət göstərilib.

Həmişə olduğu kimi, bu ilin beş ayında da şəhid ailəsi və qazilərin sağlamlıq məsələləri diqqətdə saxlanıb. Postmüharibə dövründə 450-dən çox şəhid ailəsi və müharibə əlilinə sanatoriya – kurort və müalicə mərkəzlərinə yollayış verilib, 41 nəfər müharibə əlili peşə reabilitasiyasına cəlb olunub, 60 qazi üçün motivasiya düşərgələri təşkil olunub. Həmçinin həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinin görmə qabiliyyəti məhdudluğu olan şəxslər üçün sosial reabilitasiya və bərpa şöbəsində qazilər tibbi, idman, mədəniyyət və incəsənət, psixoloji, eləcə də digər sosial reabilitasiya xidmətlərinə cəlb ediliblər. Qeyd edək ki, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində bu ilin yanvar – may aylarında əlilliyi olan 15 minə yaxın şəxsə reabilitasiya xidmətləri göstərilib. Onlar səmərəli fizioterapevtik müalicə prosedurlarına cəlb edilib, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji xidmətlərlə əhatə olunublar. Bu dövrdə agentlik tərəfindən əlilliyi olan 5 min 411 şəxsə 24 minə yaxın reabilitasiya vasitəsi verilib.

Onu da bildirək ki, 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın ailə üzvlərinin, müharibədə yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərin sosial ödənişlərlə təminatı istiqamətində müharibədən sonra elə ilk günlərdən müvafiq işlərə başlanıb. Bu barədə Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov postmüharibə dövründə şəhid ailələri və qazilərin sosial ödənişlərlə təminatı sahəsində aparılan işlərə dair keçirdiyi mətbuat konfransında bildirib. Qeyd olunub ki, Prezident İlham Əliyevin tapşırığı əsasında nazirlik tərəfindən şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların sosial ödənişlərlə təminatı da əsas fəaliyyət istiqamətlərindən biridir. Müharibədən sonra bununla bağlı xüsusi işçi qrup yaradılıb, şəhidlərin ailələri ziyarət edilib, onlara sosial təminat hüquqlarına dair məlumatlar verilib. Şəhid ailələrinin üzvlərinə, Vətən müharibəsində yaralanmış və müalicə bitdikdən sonra əlillik təyin edilmiş hərbi qulluqçulara onların müraciətinə, zəruri sənədləri təqdim etmələrinə ehtiyac olmadan e-sistem üzərindən proaktiv qaydada sosial ödənişlər təyin olunub. Bu ödənişlər Prezidentin aylıq təqaüdü, pensiya və müavinətlərdən ibarətdir. "Müharibə veteranı" adı verilmiş şəxslərə də 2022-ci ilin əvvəlindən Prezidentin aylıq təqaüdünün təyinatı prosesi də proaktiv qaydada həyata keçirilərək yekunlaşdırılıb. Beləliklə, postmüharibə dövründə şəhid ailələrinin üzvləri və qazilərdən ibarət 93 min şəxsə 104 min sosial ödəniş təyinatı aparılıb.

Qeyd etmək yerinə düşər ki, 2021-ci ilin əvvəlindən şəhid ailələri və müharibə əlillərinin, Milli qəhrəmanların təqaüdləri, 2022-ci ilin əvvəlindən müavinətlər, o cümlədən əlilliyə görə müavinətlər orta hesabla 60 faiz artırılıb. Postmüharibə dövründə "Vətən Müharibəsi Qəhrəmanı" adı alanlara və Vətən müharibəsinin veteranlarına Prezidentin aylıq təqaüdü təsis olunub. Bütün bunlar onu deməyə əsas verir ki, ölkədə aparılan islahatlar nəticəsində həmişə olduğu kimi, son 4 ildə də köklü sosial islahatlar çərçivəsində aztəminatlı, həssas kateqoriyaya aid, o cümlədən şəhid ailələri və müharibə əlillərinin sosial ödənişlərindəki ciddi artımlar, onlara göstərilən diqqət və qayğı daimidir və bu, sosial sahənin əsas prioritetlərindəndir.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***